# Elmə və insanlığa həsr olunmuş ömür...

**Hər şeydən əvvəl sözümə belə başlamaq istərdim: Professor Eldar Məmmədbəyli elmə və təhsilə ömrünü həsr etmiş, kimya elminin inkişafına böyük töhfələr vermiş, yüzlərlə tələbənin həyat yoluna işıq tutmuş bir alimdir. Onun ömür yolu gələcək nəsillərə nümunə olacaq bir məktəbdir. Onun fəaliyyəti yalnız laboratoriyalarda aparılan təcrübələrin, ya da elmi jurnallarda dərc olunan məqalələrin hüdudu ilə məhdudlaşmır.**



O zəhməti, vicdanlı araşdırma mədəniyyəti ilə bütöv bir nəslin yaddaşına çevrilib. Bu gün biz onun ömür yoluna, keçdiyi elmi və pedaqoji mərhələlərə nəzər salaraq, həm elmimizin inkişafında oynadığı rolunun, həm də alim şəxsiyyətinin böyüklüyünün şahidi oluruq. O bir kimya mütəxəssisi və alimdir. Onun kimyanı seçməsi təsadüf deyil, bu sahə onun dünyanı anlamasının, maddənin sirlərinə baş vurmasının ən doğru yoludur. Kimyanın nəzəri əsaslarını dərindən mənimsəməsi, müasir elmi fikri izləməsi, laborator proseslərə yüksək diqqəti onun gələcək fəaliyyətində mühüm rol oynamışdır. Onun təcrübələri və elmi işi həm elmi yeniliyi, həm də praktiki əhəmiyyəti ilə seçilərək həmişə geniş akademik dairələrdə müsbət qarşılanmışdır. Elm adamı olmaq üçün bilik, təcrübə və zəhmət lazımdır. Böyük alim olmaq üçünsə bunlara əlavə olaraq insanlıq, sadəlik, təvazökarlıq və kamil xarakter də tələb olunur. Eldar Məmmədbəyli həm tələbələrinin, həm həmkarlarının, həm də bütün onu tanıyanların yaddaşında məhz belə qalmışdır. Onun elmə yanaşması həmişə vicdan ciddiyyəti ilə müşayiət olunmuş, insanlara münasibəti isə səmimiyyətlə yoğrulmuşdur. Alimlər arasında nəzakəti, gənclərə qayğısı və işində dəqiqliyi onun ən seçilən xüsusiyyətlərindəndir Bu yubiley təkcə bir ömrün illəri deyil, həm də bir ömrün məhsuldar çiçəklənməsinin bayramıdır. Professor Eldar Məmmədbəylinin elmi irsi, yetişdirdiyi alimlər, yazdığı əsərlər və yaratdığı məktəb onun bundan sonra da Azərbaycan elminə xidmət edəcəyinin ən böyük sübutudur. Ona bu əlamətdar günündə möhkəm can sağlığı, yeni elmi uğurlar, gənclərə ilham verəcək uzun bir ömür və yeni nailiyyətlərlə dolu illər arzulamaq hamımızın borcudur.

***P.S.*** Mən, Ayaz bəyin haqqımda tərtib olunacağı nəzərdə tutulan biblioqrafik kitaba göndərdiyi yazı ilə tanış olmaq istəyərkən, yazı masasının üstündə onun yazdığı "Səssiz qalmayan zəfər" poemasını gördüm və növbəti dəfə bu poemanın təsiri altına düşdüm. Bu kitab haqqında düşünərkən Füzulinin "Leyli və Məcnun" poemasını xatırladım. Kitaba nəzər salanda təhtəlşüur altında aşağıdakıları təkrar oxudum:

"Ey iti qələm, barəkallah! Mən yolçuya yoldaş oldun. Min səy ilə ehtiyacını bitirdin, axır ki, məni mənzil başına yetirdin. ... bu köhnə binanı abad elədin; eşiyi göz yaşı ilə gümüşə büründü, içi ah ilə ənbərə batdı, xəznələri dərd incilərinin dəfinəsidir, bacaları dərin ahların yoludur. Xülasə bir bağ düzəldi ki, hər laləsinin bağrında yüz dağ var, arxlarının suyu ciyər qanıdır, bahar buludu kiprik ucudur "Leyli-Məcnun" adı ilə bu əsər yazılanda vəhdət rəmzləri izhara gəldi, vəhdətdə hekayət tamam oldu...

Ey paxıl, insaf elə insaf! Tən etmə ki, cövhərin saf deyil. ... Demə ki, saf cövhəri azdır...eyb tutmağı hünər sayma! Bihudə hücum etməyin yetər, əgər bacarırsansa cavab söylə! Hücumu və tərsliyi tərk elə, çünki bu yol cahillik yoludur! Həmişə xeyir söz danış, əgər xeyir demirsənsə, sus, lal ol"!

Öncə onu deyim ki, mən sizin yazdığınız poema haqqında düşünərkən fikirlərimin böyük Füzulinin yuxarıda dedikləri ilə üst-üstədüşdüyünü hiss etdim. Ona heçnə əlavə etmək olmaz!

Sonra davam edərək deyirəm ki, siz bu poemanı yazmaqla sübut etdiniz ki, yaxşı şeri, poemanı, romanı və digər sənət əsərlərini həmişə elə indinin özündə də yazmaq mümkündür. Bununla bir çox mənasız fikirləri alt-üst etdiniz. "Nizamidən, Füzulidən sonra şeir yazmağın mənası yoxdur" fikrinin düz olmadığını göstərməyi bacardınız. Yaradıcılıq potensialları tükənmiş və öz fəaliyyətlərini davam etdirə bilməyən bəzi elm adamları da öz bacarıqsızlıqlarının bu sahədə görülən işlərin zəif, yalan, saxta olması ilə izah etmələrinin düz olmadığını da göstərdiniz.

Siz öz poemanızda böyük ustalıqla Azərbaycan igidlərinin canlarını, qanlarını vətən torpaqlarını azad etmək üçün qurban verdiklərini millətə ərmağan edə bildiniz. Onlar bütün dünyaya sübut etdilər ki, erməni əfsanələri, erməni soyqırımları, erməni qəhrəmanlıqları hamısı boş əfsanə, saxta düzəldilmiş, quraşdırılmış bir yalan, saxta titullardan başqa bir şey deyildir.

Sadəcə olaraq mən hesab edirəm ki, sivil və inkişaf edən ölkələrlə indi yaşadığımız XI əsrdə və ondan əvvəlki eralarda cəmiyyətin müxtəlif zümrələri arasında təbiətşünas alimlər, ziyalılar (yunan filosoflarından başlamış indiki təbiətşünas alimlərə qədər, özəlliklə fizikaçılar) daha yüksək təfəkkür səviyyəsinə malikdir. Siz yazdığınız bu poemada və digər yazılarınızda bədii ədəbiyyatımızda son vaxtlar yaranan durğunluq dövründə bir qığılcım, bir işıq yaratdınız. Mən həmişə sizin yaradıcılığınızı oxuyanda, eşidəndə kəndir üzərində məharətlə oynayan kəndirbaz hərəkətlərinə baxarkən, Qədir Rüstəmovun son zil pərdədə oxuduğu mahnıları, sazın 24-cü pərdəsində, tarın sarı simində səsləndirilən musiqini dinləyərkən nədənsə çox həyəcanlanıram, qorxuram ki, bu səs, bu hərəkət göylərə çəkilər, kəsilə bilər.

Mənim haqqımda yazdığınız konkret yazıya görə düşünən beyindən təşəkkür edirəm. Bu yazının haqqında ancaq onu deyə bilərəm ki, əslində Ayaz Arabaçı Avropa standartlarına cavab verə bilən bir alim cizgisini yaradıb. Yazının hər cümləsində millətini, vətənini, dövlətini sevən və çağdaş tələblərə uyğun bir alim nümunəsi.

Bu yanaşma Respublikamızın bütün alimləri üçün deyilmiş sözlərdir və yol xəritəsidir. Özəlliklə öz kələf ömrünü çözən qoca ipçi babanın - mənim yol xəritəm. Sağlıqla qalın.

***Ayaz ARABAÇI***
***Azərbaycan Yazıçılar Birliyinin üzvü,***
***Prezident təqaüdçüsü***